**UOT 339.9**

*Qalib Nizami oğlu QAFARLI*
*i.f.d., doktorant, Azərbaycan Dövlət Aqrar Universiteti*
*E-mail: Qalib.qafar@gmail.com*
*https://doi.org/10.30546/4.71.73001.2025.004.372*

# ÖLKƏ İQTİSADİYYATININ QLOBAL RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN FORMALAŞDIRILMASI MEYLLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** ölkə iqtisadiyyatının qlobal rəqabət mühitində formalaşma meyllərinin və bu şəraitdə rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi amillərinin araşdırılmasını əhatə edir. Araşdırmada xüsusilə beynəlxalq iqtisadi inteqrasiyanın şərtləri və qlobal əmək bölgüsünün dinamikası təhlil olunmuş, ölkələr arasında rəqabət strategiyalarının formalaşmasına təsir edən texnoloji, institusional və iqtisadi faktorlar tədqiq olunmuşdur.

**Tədqiqatın metodologiyası** əsas etibarilə müqayisəli təhlil, statistik göstəricilərin dinamikası, elmi abstraksiya, qrafik və indekslər əsasında qiymətləndirmə metodlarından ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində iqtisadi siyasətə dair tövsiyələr və dayanıqlı artımın təmin edilməsinə yönələn strategiyaların formalaşdırılması məqsədilə elmi əsaslara malik praktiki tövsiyələr təqdim olunmuşdur.

**Tədqiqatın nəticələri** baxımından belə qənaətə gəlmək olar ki, qlobal transformasiyalar fonunda ölkələrin rəqabət qabiliyyəti texnoloji, sosial-iqtisadi mexanizmlərin birgə fəaliyyət göstərməsini tələb edir. Həmçinin Azərbaycan Respublikasının inkişaf modeli bu istiqamətdə lazımi potensiala malikdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** kimi, qloballaşma şəraitində ölkəmizin iqtisadi inkişaf modelinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsində, innovativ və səmərəli mexanizmlərin tətbiqinə əsaslanan konseptual yanaşmaların irəli sürülməsi xüsusi qeyd edilməlidir.

***Açar sözlər: qlobal rəqabət, rəqabətqabiliyyətlilik, innovasiya, rəqabət üstünlükləri, makroiqtisadi göstəricilər, istehsalın səmərəliliyi.***

## *Giriş*

Qloballaşma fonunda dünya iqtisadiyyatının müasir inkişaf səviyyəsi, bu prosesə daxil olan ölkələrdə beynəlxalq rəqabətqabiliyyətliliyin yüksəldilməsi probleminə xüsusi diqqət yetirilməsinin vacibliyini şərtləndirir. İqtisadi baxımdan rəqabətqabiliyyətlilik dinamik iqtisadi inkişafın təməl prinsiplərindən hesab olunduğundan, dövlət əhəmiyyətli məsələlər sırasında qəbul edilir. Ona görə iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin müəyyən edilməsi həm qlobal iqtisadiyyatın inkişaf dinamikasında, həm də ölkələrin iqtisadi inkişafında əsaslı dəyişikliklərə nail olunması baxımından xüsusi əhəmiyyət kəsb edir [3, s.38]. Bundan əlavə, qloballaşmanın nəticələri rəqabətədavamlı mal və xidmətlər istehsal etmək, rəqabət qabiliyyətinə təsir edən amillərin nəzərə alınmasının vacibliyini təsdiq edir.

Dünya iqtisadiyyatının qloballaşması hər bir ölkənin iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin hədəflərinin dəyişməsinə səbəb olur. Məlumdur ki, beynəlxalq iqtisadi münasibətlərin inkişafı qlobal bazarların inkişafına yönəldilir, bunun sayəsində ölkələrin əmtəə və xidmətlər istehsalında yüksək səmərəli ixtisaslaşma sistemləri və əmək bölgüsü formalaşır. Belə şəraitdə beynəlxalq rəqabət müxtəlif sosial-iqtisadi inkişaf səviyyələrinə malik ölkələrin xarici ticarətində spesifik xüsusiyyətləri ilə özünü göstərir [8, s.82]. Beləliklə, qlobal bazarlarda ölkələrin beynəlxalq rəqabətqabiliyyətlilik strategiyası aşağıdakı şərtlər daxilində formalaşır:

- qloballaşma və inteqrasiya prosesi ilə inkişaf edən təchizat zəncirində rəqabətin qloballaşması. Bu, qlobal miqyasda fəaliyyət göstərən istehlakçıların və vasitəçilərin sayının davamlı artımında, standartlaşdırılmış məhsullara və xammala tələbatın artmasında, son nəticədə tələbin reallaşdırılması yolu ilə rəqabətin qloballaşmasında özünü göstərir [6, s.16];

- istehlakçıların daha çox keyfiyyətli məhsullara üstünlük verməsi ilə ifadə olunan bazarların qütbləşməsi;

- müxtəlif istehsal sahələrinin sərhədlərinin dəyişməsi. Bu, iki istiqamətdə özünü büruzə verir: müxtəlif sahələr arasında sərhədlər silinir və onlar arasında inteqrasiya baş verir; sahədaxili sərhədlər aradan qalxır;

- informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, təkmilləşdirilməsi və tətbiqinin genişlənməsi. Belə texnologiyaların təchizatçılar və müştərilər arasında kommunikasiya, informasiya proseslərinin və əməliyyatlarının daha səmərəli təşkil olunması məqsədilə istifadəsi, dayanıqlı informasiya və kommunikasiya sisteminin formalaşmasına imkan verir;

- bazarların sərbəst şəkildə fəaliyyəti. Beynəlxalq əmək bölgüsünə inteqrasiya çərçivəsində həyata keçirilən liberallaşdırma tədbirləri qlobal iqtisadiyyatın müxtəlif sahələrində mühüm dəyişikliklərə səbəb olmuşdur. Bununla əlaqədar olaraq bazarların dövlət qurumları tərəfindən tənzimlənməsinin dayandırılması və bir çox sahələrdə inhisarçılığın aradan qaldırılması azad və rəqabətli bazarların fəaliyyətinə zəmin yaratmışdır [5, s.17];

- texniki, texnoloji, biliktutumlu sahələrdə istehsalın və istehlakın rasional və səmərəli təşkilinin vacib olduğu beynəlxalq kooperasiya əlaqələrinin səmərəliliyi, həmçinin inkişafı və s.

Beynəlxalq rəqabətqabiliyyətlilik strategiyalarının formalaşmasının göstərilən şərtlərini nəzərə alaraq, dünya iqtisadiyyatının qloballaşması şəraitində ölkələrin rəqabət mübarizəsinin aşağıdakı əsas xüsusiyyətlərini müəyyən etmək olar:

- bazar mexanizminin əsas elementlərini - xərcləri, keyfiyyəti, innovasiyanı, maliyyə sabitliyinin gücləndirilməsi kimi amilləri əhatə edən rəqabətin eyni vaxtda olması;

- rəqabətin müxtəlif səviyyələrdə və bazarlarda təkcə əmtəə və xidmətlər deyil, həm də texnologiyalar, investisiyalar, işçi qüvvəsi səviyyəsində baş verməsi ilə əlaqədar olan çoxşaxəli xarakteri;

- rəqabətin dinamizmi - bazarlarda rəqiblərin mövqelərinin sürətlə dəyişməsi;

- bazarlarda rəqabət iştirakçılarının aqressivliyi ilə müşayiət olunan rəqiblər arasında güc balansının daimi pozulması [4, s.22].

Araşdırmalar nəticəsində məlum olur ki, ölkələrin qlobal rəqabətqabiliyyətlilik modelinin formalaşması tendensiyaları elm, texnologiya və innovasiyanın inkişafı, istehsalın səmərəliliyinin yüksəldilməsi, ixracın rəqabət qabiliyyətinin artırılması, habelə xarici investisiyaların cəlb edilməsi, insan kapitalının inkişafı, ixrac dəstəyi, institusional dəyişikliklər, infrastrukturun inkişafı, bütövlükdə davamlı inkişaf kimi mühüm istiqamətləri nəzərə alır. Təsadüfi deyil ki, “Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamında “birbaşa xarici investisiyalar cəlb etməklə daxili istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, ixrac imkanlarının artırılması, ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyinin artırılması” [1] xüsusi yer almışdır.

**Ölkənin rəqabət qabiliyyətinin qiymətləndirilməsi**

Davamlı inkişaf iqtisadiyyatın uzunmüddətli rəqabətqabiliyyətliliyi üçün vacib amillərdəndir. Bu baxımdan iqtisadiyyatın əsas makrogöstəricilərindən biri olan ümumi daxili məhsulun (ÜDM) qiymətləndirilməsi vacibdir. ÜDM əsasında ölkə iqtisadiyyatının inkişaf səviyyəsini və səmərəliliyini müəyyən etməklə, rəqabətədavamlılığını qiymətləndirmək olar. Bu baxımdan təhlil göstərir ki, 2020-2024-cü illərdə Azərbaycan Respublikası üzrə ÜDM-də dinamik artım baş vermişdir. Belə ki, 2020-ci illə müqayisədə 2024-cü ildə ÜDM manat və dollar ifadəsində 74,1%, avro ilə 2,6 dəfə artmışdır. Adambaşına ümumi daxili məhsulda araşdırmaların aparıldığı dövrdə manat və dollarla 70,2%, avro ilə 79,4% artmışdır [2]. Qeyd edilənlər Azərbaycan Respublikası iqtisadiyyatının rəqabətədavamlılığını təsdiq edir.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasının illər üzrə ümumi daxili məhsulu**

| İllər | Cəmi | | | Adambaşına | | |
|---|---|---|---|---|---|---|
| | milyon manatla | milyon dollarla | milyon avro ilə | manatla | dollarla | avro ilə |
| 2020 | 72578,1 | 42693,0 | 37407,5 | 7277,4 | 4280,8 | 3750,9 |
| 2021 | 93203,2 | 54825,4 | 46312,1 | 9278,9 | 5458,2 | 4610,6 |
| 2022 | 133972,7 | 78807,5 | 74724,0 | 13270,9 | 7806,4 | 7401,9 |
| 2023 | 123128,4 | 72428,5 | 66975,8 | 12126,1 | 7133,0 | 6596,0 |
| 2024 | 126337,0 | 74315,0 | 68661,4 | 12382,5 | 7283,8 | 6729,6 |
| 2020-ci illə müqayisədə 2024-cü ildə, %-lə | 174,1 | 174,1 | 2,6 dəfə | 170,2 | 170,2 | 179,4 |

*Mənbə: AR Dövlət Statistika Komitəsinin materialları*

Ölkələrin rəqabət qabiliyyətinin beynəlxalq qiymətləndirilməsi təcrübəsində müxtəlif yanaşmalardan istifadə olunur. Bu yanaşmalardan biri müqayisə edilən ölkələrin iqtisadiyyatında məsrəflərin və qiymətlərin müqayisəsinə əsaslanır. Qiymət səviyyəsinin müəyyənləşdirilməsinə yaxınlaşma əmək məhsuldarlığı, əməkhaqqı və valyuta məzənnəsi kimi xüsusiyyətlərin funksiyası olan xüsusi əməkhaqqının dəyərlərinin hesablanması ilə təmin edilir. Bu göstəricilər sistemi xərclərin və qiymətlərin səviyyələrini müqayisə etməyə, nəticədə ölkələrin rəqabətqabiliyyətlilik səviyyələrindəki dəyişiklikləri müəyyən etməyə imkan verir. Göstərilən yanaşma əsasında istehlak qiymətləri indeksinin müqayisəsi göstərir ki, Azərbaycanda bu göstərici son 5 ildə fərqli istiqamətlərdə dəyişmişdir: cədvəl 2-dən də məlum olduğu kimi, əvvəlki ilə nisbətən 2019-cu ildə 2,6%, 2020-ci ildə 2,8%, 2021-ci ildə 6,7%, 2022-ci ildə 13,9%, 2023-cü ildə 8,8%. Yalnız 2023-cü il üzrə ölkələrə nəzər saldıqda məlum olur ki, istehlak qiymətləri indeksi Türkiyədə 53,9% yüksəlmişdir. Göstərici Qazaxıstanda 14,5% səviyyəsinə çatmış, digər ölkələrdə isə, demək olar ki, istehlak qiymətləri indeksi 2,5-7,8% aralığında tərəddüd etmişdir [2].

**Cədvəl 2.**

**İstehlak qiymətləri indeksi, əvvəlki ilə nisbətən, faizlə**


| Ölkələr | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 102,6 | 102,8 | 106,7 | 113,9 | 108,8 |
| Rusiya | 104,5 | 103,4 | 106,7 | 113,8 | 105,9 |
| Türkiyə | 115,2 | 112,3 | 119,6 | 172,3 | 153,9 |
| Gürcüstan | 104,9 | 105,2 | 109,6 | 111,9 | 102,5 |
| Qazaxıstan | 105,3 | 106,8 | 108,0 | 115,0 | 114,5 |
| Avstriya | 101,5 | 101,4 | 102,8 | 108,5 | 107,8 |
| Almaniya | 101,4 | 100,5 | 103,1 | 106,9 | 105,9 |
| Danimarka | 100,8 | 100,4 | 101,9 | 107,7 | 103,3 |
| ABŞ | 101,8 | 101,2 | 104,7 | 108,0 | 104,1 |
| Finlandiya | 101,0 | 100,3 | 102,2 | 107,1 | 106,2 |
| Fransa | 101,1 | 100,5 | 101,6 | 105,2 | 104,9 |
| Yaponiya | 100,5 | 100,0 | 99,8 | 102,5 | 103,2 |

*Mənbə: AR Dövlət Statistika Komitəsinin materialları*

İkinci yanaşma xarici ticarət fəaliyyətinin nəticələri, ixracın həcmi və strukturu, ölkədaxili ticarət dövriyyəsində yerli məhsulların xüsusi çəkisinin dəyişməsi əsasında rəqabət üstünlüklərinin təhlilini nəzərdə tutur. Bu üsul bir ölkənin xarici iqtisadi fəaliyyəti ilə bağlı vəziyyətinə əsasən qlobal bazarlarda rəqabətə nə dərəcədə hazır olması qənaətinə gəlməyə imkan verir. Qrafik 1-də

göstərilən, Azərbaycanın xarici ticarət dövriyyəsinin dinamikasına nəzər saldıqda məlum olur ki, yalnız 2022-ci ildə 2021-ci illə müqayisədə 3,3% artım baş vermişdir. Doğrudur, 2021-ci ildə və 2024-cü ildə əvvəlki ilə nisbətən daha aşağı səviyyədə azalma müşahidə edilir, ümumilikdə isə azalmanın baş verdiyini qeyd etmək mümkündür.

Qrafik 1-dən məlum olduğu kimi idxalda 2022-ci, 2023 və 2024-cü illərdə müvafiq olaraq 1,7%, 1,9% və 3,1% artım, digər illərdə azalma baş vermişdir. Təbii ki, idxalda artım, ümumi şəkildə müsbət hal kimi qiymətləndirilməsə də bəzi hallarda idxal, daxili tələbatın ödənilməsi məqsədi daşıyır. 2022-ci ildə isə 4,2% artımla özünü göstərən ixracın səviyyəsi göstərir ki, digər illər üzrə azalma müşayiət edilir. İxracda azalma hər bir ölkə üçün həm valyuta daxilolmaları, həm idxaldan asılılıq, həm də qlobal bazarlarda rəqabətqabiliyyətlilik baxımından mənfi hal kimi dəyərləndirilə bilər.




| | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| ticarət dövriyyəsi | 72,7 | 87,2 | 103,3 | 91,6 | 92,6 |
| idxal | 64 | 90 | 101,7 | 101,9 | 103,1 |
| ixrac | 78,8 | 85 | 104,2 | 87,7 | 87,2 |

**Qrafik 1. Xarici ticarət dövriyyəsinin dinamikası, əvvəlki ilə nisbətən faktiki qiymətlərlə, faizlə**

*Mənbə: AR Dövlət Statistika Komitəsinin materialları*

Üçüncü daha kompleks yanaşma kimi özünü göstərir və bütövlükdə iqtisadiyyatın səmərəliliyini xarakterizə edən çox sayda göstəricilər əsasında rəqabətqabiliyyətlilik reytinqlərinə görə ölkələrin müqayisəsinə əsaslanır. Bu yanaşmada rəqabətqabiliyyətlilik ölkənin orta və uzunmüddətli perspektivdə iqtisadi artım tempini saxlamaq qabiliyyəti kimi də xarakterizə olunur. Yanaşmaya görə istehsalın texniki səviyyəsinin xüsusiyyətləri, məhsulların elmi intensivliyi, resurslardan istifadənin səmərəliliyi, iqtisadi potensialın səviyyəsi, qiymət-keyfiyyət nisbətinin effektivliyinə nail olmaq imkanları kimi göstəricilər əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyi qiymətləndirilir. Müəyyən edilmiş göstəricilərdən istifadə olunmaqla, rəqabətqabiliyyətliliyin və rəqabət üstünlüklərinin əldə edilməsi mexanizminin formalaşdırılması üçün ilkin şərtlər yaradılır.

Üçüncü yanaşmanın tətbiqi metodologiyasını hazırlayan Dünya İqtisadi Forumudur və onun ekspertləri tərəfindən bu yolla ölkələrin rəqabət qabiliyyəti qiymətləndirilir. Ölkələrin iqtisadi artımını qiymətləndirmək üçün orta və uzunmüddətli perspektivdə makro və mikroiqtisadi göstəricilər, eləcə də rəqabətqabiliyyətlilik indeksi hesablanır. Belə hesablamalar əsasında müqayisənin aparılması bəzi ölkələrin digərlərinə nisbətən rəqabət üstünlüklərini müəyyən etmək, beynəlxalq ticarətini genişləndirmək və iqtisadi sistemin həm mikro, həm də makrosəviyyədə səmərəli inkişafını təmin etmək məqsədilə istifadə olunur [7, s.23].

Qloballaşma şəraitində ölkələrin rəqabət qabiliyyətinin hərtərəfli qiymətləndirilməsi aşağıdakı amillərin nəzərə alınmasının zəruriliyini tələb edir:

- dövlət qurumları və sosial institutlar - fərdlərin və şirkətlərin mənfəət əldə etməsi məqsədilə biznes mühitini formalaşdırır və bu, ümumi rəqabət qabiliyyətinə əhəmiyyətli təsir göstərir;
- infrastruktur - bütövlükdə iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin coğrafi təmərküzləşmə-

sini müəyyən edir, ölkənin qlobal iqtisadiyyata inteqrasiyasına töhfə verir, bazarların səmərəli fəaliyyət göstərməsinə və xarici ticarət fəaliyyətinin intensivləşməsinə kömək edir;

- makroiqtisadi mühit - ölkədə biznesin inkişafına və ümumilikdə onun rəqabət qabiliyyətinə birbaşa təsir göstərir;

- insan resursları - əmək məhsuldarlığının artırılmasında əmək qabiliyyətli əhalinin fiziki sağlamlığı mühüm əhəmiyyət kəsb edir və insan resurslarının sağlamlığına qoyulan investisiyalar iqtisadi inkişaf üçün həlledici amildir;

- təhsil səviyyəsi - innovativ iqtisadi inkişafa nail olunması bilavasitə yüksək təhsil səviyyəsi ilə mümkündür və qloballaşma prosesi sürətlə dəyişən mühitə çevik uyğunlaşa bilən yüksək ixtisaslı işçi qüvvəsinin istifadəsini tələb edir;

- istehlak bazarlarının səmərəliliyi – səmərəli fəaliyyət göstərən bazarlara malik olan ölkələr daha çox çeşiddə mal və xidmətlər istehsal etməyə səy göstərir. Belə şəraitdə xarici ticarət əməliyyatlarında rəqabətin təmin olunması işgüzar fəallığın gücləndirilməsində mühüm rol oynayır. Əmtəə bazarlarının səmərəliliyi ilk növbədə, istehlakçıların davranışı və üstünlükləri ilə müəyyən edilən tələbdən asılıdır;

- əmək bazarının səmərəliliyi - əmək bazarlarında əməyin rasional bölgüsü, iqtisadi vəziyyətdən asılı olaraq əmək resurslarının iqtisadiyyatın bir sahəsindən digərinə miqrasiyası, habelə gəlir səviyyələrini tənzimləyən səmərəli mexanizmlərin olması vacibdir;

- maliyyə bazarının inkişafı - əmanətlərin səmərəli şəkildə istifadəsi və onların yenidən bölgüsü üçün müxtəlif maliyyə idarəetmə mexanizmlərini həyata keçirən inkişaf etmiş maliyyə bazarları zəruridir. İnkişaf etmiş maliyyə bazarları iqtisadiyyata innovasiyaların və investisiyaların tətbiqi üçün şərait yaradır;

- texnoloji hazırlıq - texnologiyaların sürətli inkişafı və istifadəsinin genişlənməsi zərurəti, onların mürəkkəbləşməsi ilə əlaqədar olaraq xüsusi əhəmiyyət kəsb edir. Müasir texnologiyaların aktiv istifadəsi ölkələr arasında texnoloji fərqlərin aradan qaldırılmasına gətirib çıxarır;

- bazarın ölçüsü - bazarın ölçüsü coğrafi baxımdan miqyas iqtisadiyyatından istifadə edən şirkətlərə daha çox üstünlük verir. Bu baxımdan qloballaşma prosesi dərinləşdikcə, bazarların yerləşməsinin əhəmiyyəti azalır və bir çox şirkətlər üçün daxili bazarlar deyil, daha çox beynəlxalq bazarlar maraq kəsb edir;

- biznes mükəmməlliyi - məhsul və xidmətlərin səmərəli istehsalı üçün ən mühüm ilkin şərtlərdəndir. Belə amillərə ölkədə biznesin inkişafı sistemi, ayrı-ayrı şirkətlər, onların strategiyaları və əməliyyat fəaliyyətləri aiddir;

- innovasiya - iqtisadiyyatın davamlı inkişafında əhəmiyyətli rolu ilə fərqlənir və aktiv innovasiya fəaliyyəti dövlət dəstəyi tələb edir.

**Ölkənin rəqabət qabiliyyətinin artırılması yolları**

Hazırda dünya ölkələri, qlobal iqtisadiyyatın dəyişən şəraitində rəqabətqabiliyyətliliyin artırılmasının daha effektiv yollarını müəyyən etməkdə maraqlıdır. Bu məsələnin həlli qlobal iqtisadiyyatın gələcək inkişafının və şaxələndirilməsinin əsas meyilləri, həmçinin ölkələrin dayanıqlı iqtisadi və sosial inkişafı, əhalinin yüksək həyat səviyyəsinə nail olunması ilə ən sıx bağlıdır [11, s. 77].

Beləliklə, beynəlxalq rəqabətqabiliyyətlilik, ölkələrin bu səviyyəyə uyğun olaraq sıralanmasının oxşar prinsiplərinə əsaslanır. Bu, eyni zamanda, ölkənin rəqabətqabiliyyətlilik səviyyəsinə təsir edən amillərin formalaşmasında, bu təsirin səviyyəsinin qiymətləndirilməsində, habelə onları müəyyən edən göstəricilərin sayında özünü göstərir. Bundan əlavə, rəqabətqabiliyyətlilik qlobal iqtisadiyyatın inkişafının bütün əsas tendensiyalarını, innovativ texnologiyaları, ölkələrin ən son nailiyyətlərini nəzərə alır.

Qeyd edilənlərdən aydın olur ki, ölkələrin rəqabət qabiliyyəti istehsal sisteminin uzunmüddətli inkişafını müəyyən edən amillərdəndir və iqtisadiyyatın beynəlxalq iqtisadi sistemə cəlb olunma dərəcəsini müəyyən edir. Qlobal müstəvidə rəqabətqabiliyyətlilik, ölkələrin beynəlxalq bazarların tələbatına cavab verən əmtəə və xidmətlər istehsal etmək qabiliyyətini xarakterizə edir [10]. İqtisadi əlaqələrin genişləndirilməsi iqtisadi inkişafın strateji istiqamətini müəyyən etməyə, o

cümlədən texnoloji və innovativ inkişafın yüksək səviyyəsinə, inkişaf etmiş infrastruktura malik olmaqla iqtisadi cəhətdən inkişaf etmiş ölkə mövqeyində dünya iqtisadiyyatına inteqrasiyanı təmin edir. Eyni zamanda özünün rəqabətqabiliyyətlilik səviyyəsini nəzərə alaraq ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə daxil olması, uzunmüddətli dayanıqlı iqtisadi artım prosesinin aktivləşməsinə şərait yaradır.

Beləliklə, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyi ayrı-ayrı istehsalçıların daxili və xarici bazarlarda iqtisadi, sosial və digər amillərlə müəyyən edilən, onun dinamikasını adekvat səciyyələndirən göstəricilər vasitəsilə əks olunan mövqeyidir [9, s.62]. Beynəlxalq rəqabətqabiliyyətliliyin bir sıra ümumi xüsusiyyətlərini də vurğulamaq olar:

- əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmiş vasitə kimi çıxış edir;
- resurslardan səmərəli istifadəni təmin edir;
- iqtisadi subyektlərin azad rəqabət şəraitində dünya bazarının tələbatına cavab verən əmtəə və xidmətlər istehsal etmək qabiliyyətini formalaşdırır;
- iqtisadiyyatın yüksək inkişaf etmiş elmi-texniki və iqtisadi artım templəri ilə xarakterizə olunur;
- iqtisadi sistemin inkişafının davamlılığını və dinamikliyini əks etdirən obyektiv proses kimi özünü təsdiq edir [8, s. 82].

### *Nəticə*

Araşdırmalar əsasında qeyd etmək olar ki, beynəlxalq rəqabət qabiliyyəti ölkənin iqtisadi potensialını və sosial-iqtisadi inkişaf səviyyəsini yüksəltmək məqsədilə ölkə daxilində və xaricdə istehsal, bölgü, istehlak və satışın səmərəlilik səviyyəsini əks etdirən göstərici kimi müəyyən edilir. Belə nəticəyə gəlmək olar ki, ayrı-ayrı ölkələrin rəqabətqabiliyyətliliyi onların istehsal etdikləri məhsulların qlobal bazarlarda rəqabət qabiliyyətini nəzərdə tutur.

Ölkənin rəqabət qabiliyyətinin inkişafı istehsal, investisiyaya, innovasiyaya və gəlirə əsaslanan mərhələlərdə həyata keçirilir. İnkişaf etmiş ölkələrin rəqabətqabiliyyətlilik konsepsiyasının formalaşdırılması və həyata keçirilməsi təcrübəsi göstərir ki, iqtisadi sistemin rəqabət qabiliyyəti dövlətlə biznesin səmərəli qarşılıqlı əlaqəsi şəraitində innovativ texnologiyalardan istifadə etməklə onun səmərəliliyinin artırılmasına əsaslanır. Qlobal rəqabət şəraitində beynəlxalq iqtisadi münasibətlər sisteminin formalaşması perspektiv texnoloji strukturları nəzərə almaqla elmi-texniki tərəqqinin istehsalata tətbiqi yolu ilə baş verdiyindən, rəqabət qabiliyyətinin əldə edilməsi imkanları da çoxalır.

### ƏDƏBİYYAT

1. “Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 19 sentyabr 2018-ci il.
2. “Azərbaycanın statistik göstəriciləri” Statistik məcmuə / Bakı – 2025.
3. Hüseyn R.Z. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları. Bakı-2018, “Avropa” nəşriyyatı. 408 s.
4. Беленов О. Н., Анучин А. А. Конкурентоспособность стран и регионов. М.: КНОРУС, 2015. С. 22.
5. Капустин Н. А. Международные модели регулирования конкуренции: к постановке проблемы // Журнал российского права. 2017. № 1. С. 17
6. Кондратьев В. Б. Мировая экономика как система глобальных цепочек стоимости // Мировая экономика и международные отношения. 2015. № 3. С. 5-17.
7. Лежнева А. В. Формирование конкурентных преимуществ в условиях реализации инновационной стратегии компании // Стратегии бизнеса. 2016. № 5 (25). С. 22-25.
8. Никитина М. Г. Геоэкономика: формирование международной конкурентоспособности: Монография. Симферополь: АРИАЛ, 2012. С. 82.

9. Портер М. Международная конкуренция / под ред. В.Д. Щетинина. - М.: Международные отношения, 1993. - 896 с.
10. Файона П. Глобальная конкурентоспособность: измерение производительного потенциала наций // Исследование Мирового экономического форума. URL: http://www.feg.org.ua/docs.
11. Huseinov M. J., Amrahov V. T. About academic issues of necessary factors for diversification of production in agrarian sector //ISJ Theoretical & Applied Science. – 2017. – Т. 4. – №. 48. – С. 76-78. .Doi: https://dx.doi.org/10.15863/TAS.2017.04.48.12

***Галиб Низами оглы Кафарлы***
***к.э.н., докторант Азербайджанского***
***Государственного Аграрного Университета***

**Тенденции формирования глобальной конкурентоспособности национальной экономики**

***Резюме***

**Целью исследования** является изучение тенденций формирования национальной экономики в условиях глобальной конкурентной среды, а также факторов, способствующих повышению уровня конкурентоспособности в этих условиях. В исследовании особое внимание уделяется анализу условий международной экономической интеграции и динамике глобального разделения труда. Изучены технологические, институциональные и экономические факторы, влияющие на формирование конкурентных стратегий между странами.

**Методология исследования** в основном основывается на сравнительном анализе, динамике статистических показателей, научной абстракции, графических методах и методах оценки на основе индексов.

**Практическая значимость исследования** заключается в выработке научно обоснованных практических рекомендаций по экономической политике, направленных на повышение конкурентоспособности страны и формирование стратегий обеспечения устойчивого роста.

**Результаты исследования** позволяют сделать вывод, что на фоне глобальных трансформаций конкурентоспособность стран требует синхронного функционирования технологических и социально-экономических механизмов. Кроме того, модель развития Азербайджанской Республики обладает необходимым потенциалом в данном направлении.

**Оригинальность и научная новизна исследования** заключаются в выдвижении концептуальных подходов, основанных на применении инновационных и эффективных механизмов, с целью определения приоритетных направлений модели экономического развития страны в условиях глобализации.

***Ключевые слова: глобальная конкуренция, конкурентоспособность, инновации, конкурентные преимущества, макроэкономические показатели, эффективность производства.***

***Galib Nizami Qafarli***
***PhD in Economics, Doctoral Student,***
***Azerbaijan State Agricultural University***

**Trends in forming the global competitiveness of the national economy**

***Summary***

**The objective of the research** is to explore the trends in the formation of the national economy within a global competitive environment and to investigate the factors that contribute to enhancing

competitiveness under these conditions. The study specifically analyzes the conditions of international economic integration and the dynamics of global labor division. It also examines the technological, institutional, and economic factors influencing the formation of competitive strategies among countries.

**The research methodology** is primarily based on comparative analysis, the dynamics of statistical indicators, scientific abstraction, graphical methods, and index-based evaluation techniques.

**In terms of practical significance**, the study offers scientifically grounded recommendations for economic policy aimed at enhancing national competitiveness and developing strategies to ensure sustainable growth.

**The research results** suggest that, in the context of global transformations, national competitiveness requires the joint operation of technological and socio-economic mechanisms. Moreover, the development model of the Republic of Azerbaijan possesses the necessary potential in this direction.

**The originality and scientific innovation** of the research lie in the proposal of conceptual approaches based on the application of innovative and efficient mechanisms for identifying the priority directions of the country's economic development model in a globalized environment.

***Keywords: global competition, competitiveness, innovation, competitive advantages, macroeconomic indicators, production efficiency.***